Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası




# 31 Mart – tariximizin göz yaşı

**31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**31 Mart – tariximizin göz yaşı :** 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.- 41 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Tarixi qədimdən-qədim, soykökü minilliklərə gedib çıxan bir xalq var – Azərbaycan xalqı! Əsrlər boyu hər cür məhrumiyyətə, müsibətə sinə gərib, ən ağır döyüşlərdən, ölüm-dirim savaşlarından qalib kimi çıxan, meydanda düşmənin gözünün içinə dik baxmağı bacaran məğrur, qürurlu, əyilməzdir Azərbaycan xalqı! Azərbaycan tarixində faciəli günlər çox olub. Xalqımızın həyat salnaməsini vərəqlədikcə əsrlər boyu başımıza gələnlərin şahidinə çevrilirik, əcdadlarımızın, babalarımızın və atalarımızın zaman-zaman düçar olduqları bəlaları göz önünə gətiririk. Heyrət edirik ki, ağlagəlməz keşməkeşlərə tab gətirib yaşamış, bu günlərə gəlib çıxmış xalqımız nə qədər yenilməz və dözümlü imiş?!.. Faşizm Almaniyası milyonlarla insanın qanı bahasıyla nəticələnən İkinci Dünya Müharibəsini bir neçə il davam etdirmişdirsə, ermənilərin törətdikləri vəhşiliklərin tarixi 200 ildir. Azərbaycan xalqına qarşı 1905-1907, 1917-1918-1920-ci və 1948-1953-cü illərdə törədilən soyqırımlarına Qaradağ, Xocalı da əlavə olundu, aranlı-dağlı Qarabağ işğal edildi. Xalqımız özünə qarşı tuşlanmış çirkin niyyətləri heç vaxt unutmamalı, qəlbində yaşatmalı, səbəbləri öyrənib təhlil etməli və tarixin ibrət dərslərindən düzgün nəticə çıxarmalıdır. Bu bizim üçün yazılmamış həyat qanununa çevrilməlidir. Azərbaycan tarixinə, insanlığa və bəşəriyyətə qarşı ən amansız və dəhşətli cinayətlərdən biri kimi düşmüş soyqırımı bugünkü və gələcək nəsillər unutmasın deyə, bu vəsaiti işləməyi özümüzə borc bilirik.

## Bir əsrə sığmayan zülm

Azərbaycan xalqının minilliklərlə ölçülən zəngin və şərəfli tarixində həm qəhrəmanlıq, həm də faciə səhifələri bir-birini əvəz etmiş, nəsildən-nəslə qan yaddaşı və gen vasitəsilə ötürülmüşdür. Tariximizin bu 31 Mart səhifəsinin unikallığı ondadır ki, o eyni vaxtda həm faciə, həm də qəhrəmanlıq nümunəsidir.

Tarixçilər XX əsri *"bəşər tarixinin ən zəngin, ən ziddiyyətli və eyni zamanda da şərəfli, həm də qanlı-qadalı əsri"* adlandırırlar. Şərəfilə yanaşı, qanlı-qadası da bizim payımıza düşdü. Əvvəlində də, sonunda da faciələrə soyqırımlara məruz qaldıq. "Dünyanın siyasi xəritəsini, bəşəri, tərəqqi və inkişafın məcrasını dəyişən XX əsr bütün dünya kimi Azərbaycanı da milli intibah, siyasi oyanış, müstəqillik və istiqlal yoluna cəlb etdi. "Bu istiqlal, bu oyanış bizə qanlı faciələrin, soyqırımların bahasına başa gəldi. Belə faciələrdən biri də 100 ili haqlayan 1918-ci il martın sonlarından aprelin əvvəllərinə kimi xalqımıza qarşı törədilən, tarixdə misli görünməmiş mart faciəsi oldu.

1998-ci ildən 31 Mart Azərbaycan Respublikasında dövlət səviyyəsində Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Bu soyqırım Azərbaycan xalqı və dövlətçiliyinin tarixində baş vermiş faciəli hadisələrə milli yaddaşın təzahürüdür. Azərbaycanlıların kütləvi surətdə qırğını, repressiyalara məruz qalması, doğma yurdlarından sürgün edilməsi və didərgin salınması XX əsr tarixinin ən faciəli və dəhşətli səhifələrindəndir. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə

yeksan edildi, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin qəsbkar torpaq iddialarını pərdələmişlər. 1918-ci ilin mart ayından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin təhqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara

qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar keçmiş SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və bunun əsasında, 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyası Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin guya erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məzlum erməni xalq"ının surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi. Rəsmi mənbələrə əsasən soyqırımın nəticəsində 12 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür. Ümummilli lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Sərəncamı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

31 Mart soyqırımı ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, səhnəciklər, icmal, anım gecəsi və s. keçirilə bilər. 31 Mart soyqırımı haqqında şagirdləri və gənc nəsli maarifləndirmək məqsədilə kitabxanada kitab sərgisi təşkil olunmalıdır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: “İki əsr davam edən xislət”, “Türkün soyqırımı”, “Ermənilərin genosidi, yoxsa genetik həyasızlığı”, “Əzəli və əbədi düşmən”, “Mart soyqırımı xalqımıza qarşı törədilmiş bəşəri cinayət idi”, “Faciələrimiz unudulmayacaq”, “Al qana boyanmış bahar günləri”, “Mart Soyqırımı: bəşəriyyət sussa da, faktlar susmur”, “Sağalmayan yaralar”, “Bu qan yerdə qalan deyil”, “Bir şəhiddir ürəyim”, “Mənfur erməni terrorunun qurbanları”, “Azərbaycan ağrısı”, “Bir əsrə sığmayan zülm”, “Ağlayan daşlar”, “Soyqırım açıq və gizli formalarda”, “Qana bələnmiş tarix”, “Əbədiyyətə qovuşanlar”, “Qanlı səhifələr”, “Türksüz Ermənistan yaratmaq məqsədi”, “Həqiqət və haqq işi gec olsa da, güc olur” və s.

31 Mart soyqırımı ilə bağlı şəkillərdən ibarət fotostend və bu faciədən bəhs edən kitablar sərgidə öz yerini alır. Müxtəlif ədiblərin, görkəmli şəxsiyyət və tarixçilərə məxsus kəlam və materiallar da sərgidə nümayiş oluna bilər. Bütün bunlarla yanaşı, sitatlar və şeir parçaları sərginin daha da dolğunlaşmasına səbəb olar.

# Kitab sərgisi
























## Görkəmli şəxsiyyətlərin 31 Mart soyqırımı haqqında söylədikləri fikirlər:

Son iki əsrdə Qafqazda Azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində Azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun üçün isə yalnız möhkəm və yenilməz milli birlik nümayiş etdirməliyik.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycan ərazi bütövlüyü bərpa ediləcəkdir, Azərbaycan xalqı Dağlıq Qarabağda və ətraf bölgələrdə yaşamış, yaratmışdır. Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulmuşdur. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır. Biz heç vaxt imkan verə bilmərik ki, doğma torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövləti yaradılsın.

Tarixdə artıq bir dəfə Azərbaycanın əzəli torpaqlarında erməni dövləti yaradılmışdır, o da bugünkü Ermənistandır. O

torpaqlar bizim doğma ata-baba topraqlarımızdır. İrəvan xanlığı, Zəngəzur mahalı – bütün o adlar Azərbaycan toponimləridir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

Türk demokratiyasının qafasında partladılan toplar, müsəlmanlara edilən ədalətsizlik Azərbaycan fikrini daşıyanları, muxtariyyat və istiqlal əqidəsi ilə yaşayanları məhv etmək üçün idi.

**M.Ə.Rəsulzadə,**
*ictimai xadim*

Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Onlar kefi istədikləri adamları öldürür, evləri dağıdır, xaraba qoyurdular. Nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər.

**Nəriman Nərimanov,**
*ictimai xadim*

Ey ziyalılar, Qafqasiyanın böyük və bərəkətli bir qismi biz Azərbaycan türklərinindir. Burada torpağın və mülkün çoxu bizim, danışılan dil bizim, ruhumuzu bəzəyən musiqi və ədəbiyyat bizimdir. Bəs Allahın o gözəl nemətlərindən niyə üz döndərirsiniz? Məgər neçə milyonluq türkün gücü yoxdur? Güc var. Toplanıb cəmi gücümüzü təşkilata tabe etməliyik, ədəmi-mərkəziyyət qayəli Azərbaycanda bir idarə yaradılmalıdır ki, Dağıstan, Bakı, Gəncə, İrəvan, Batum və Qars vilayətlərində türklər mal və namusunu mühafizə etsin. Həm hal-hazırda, həm də gəlcəkdə asudə və səadətli yaşamağını təmin eləsin.

**Yusif Vəzir Çəmənzəminli,**
*yazıçı*

Ermənilər müsəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərələ parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, evlərə od vurub sakinləri ilə qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər.

**Kulqe,**
*tədqiqatçı*

31 Mart Azərbaycanlıların soyqırımı ilə bağlı kitabxanada keçirilən tədbirlərdən biri də *"Ermənistanın Azərbaycana təcavüzü"* adlı sərgi ətrafında ***oxucularla biblioqrafik icmal*** adlanır.

Bunun üçün kitabxanaçı sərgidə yer almış kitablar haqqında məlumata keçid alır.

*Kitabxanaçı:* Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı. 1 cild, "26 Bakı komissarları"nın əsl tarixi. Bakı, Çaşıoğlu, 2009, -776 səhifə. Oxucu mühakiməsinə təqdim olunan bu kitab "Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı" adlı üçcildlik sənədlər toplusunun 1-ci cildidir. Kitab Milli Elmlər Akademiyasının Tarix İnstitutunda ilk mənbələrin nəşrini nəzərdə tutan uzunmüddətli layihənin tərkib hissəsidir. Sənət toplusu sovet hakimiyyəti illərində Azərbaycan xalqının xüsusi məqsədlərlə saxtalaşdırılmış tarixinin əsl mənzərəsini üzə çıxarır. Kitabda daxil edilmiş arxiv sənədləri və müəllif məqalələrində "Daşnaksütyun" partiyası Bakı Komitəsinin üzvü Stepan Şaumyanın başçılıq etdiyi daşnak-bolşevik cəlladlarının Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli soyqırımın indiyədək xalqdan gizlədilmiş səhifələri işıqlandırılır.

İkinci kitab Vəliyev Akif Abduləzim oğlunun (Aşurlu) "31 mart soyqırımı: 1918-1920-ci illər mətbuatında" adlı kitabıdır. "31 mart soyqırımı: 1918-1920-ci illər mətbuatında" kitabı ermənilərin Azərbaycan xalqına qarşı törətdikləri kütləvi

qətliamdan bəhs edir. Kitabda soyqırım tarixşünaslığı üçün yenilik sayılacaq faktlar, məqalələr əksini tapır. “Azərbaycan”, “İstiqlal”, “Hümmət” kimi mətbu orqanlarla yanaşı, ilk dəfə olaraq adı mətbuat tariximizə yazılan 1918-ci ildə Tiflisdə nəşr olunan “Qardaş qayğısı” qəzetində çap olunmuş məqalələr ərəb qrafikasından müasir əlifbaya keçirilərək oxuculara çatdırılır.

Əslən Maştağadan olan Seyidağa Axundzadənin 1919-cu ildə “Turan” mətbəəsində çap olunmuş “Mart hadisəsi 1918...” kitabı da ilk dəfə müasir əlifbada işıq üzü görür.

Növbəti kitab “Soyqırım: Erməni terorizmi” adlanır. Kitabda soyqırım və erməni təcavüzü müsabiqəsində iştirak etmiş müəlliflərin hekayələri və publisistik əsərləri dərc edilmişdir. Kitab, erməni vəhşiliklərinin ifşa olunmasına böyük əmək sərf etmiş, görkəmli filosof, f.e.d. Sabir Əsədovun xatirəsinə həsr olunur.

Sərgidə yer alan kitablardan biri də Anar İsgəndərlinin “Azərbaycan həqiqətləri: 1917-1920” adlı kitabıdır. Kitabda ermənilərin Cənubi Qafqazda məskunlaşması, onların Osmanlı imperiyasının tərkibində fəaliyyəti, Xüsusi Zaqafqaziya Komitəsi, Zaqafqaziya Seymi, 1918-1920-ci illərdə erməni hərbi birləşmələri tərəfindən Bakı, Şamaxı, Quba, Lənkəran, Zəngəzur, İravan, Urmiya, Maku və Xoyda türk-müsəlman əhalisinə qarşı həyata keçirilən soyqırımlar, Azərbaycan Xalq Cümhuriyyətinin Tiflis dövrü, Gəncə dövrü, Qafqaz-İslam Ordusunun Azərbaycana xilaskarlıq yürüşü, Bakı Xalq Komissarları Sovetinin antiazərbaycan siyasəti, ingilis qüvvələrinin Bakıya daxil olması, Azərbaycan parlamentinin təşkili, AXC-nin daxili və xarici siyasəti, Azərbaycan nümayəndə heyətinin Paris Sülh Konfransında iştirakı, AXC-nin Sovet Rusiyası tərəfindən işğalı mövcud arxiv sənədləri və qərb müəlliflərinin əsərləri əsasında tədqiq edilmişdir.

Sərgidə yer alan növbəti kitab Elçin Əhmədovun "Ermənistanın Azərbaycana təcavüzü" adlı kitabıdır. Monoqrafiyada XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin indiyə qədər davam edən mərhələsinin təhlili xronikası verilmişdir. Son 25 il ərzində Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, eyni zamanda dünya birliyinin bu işğalla bağlı mövqeyi və beynəlxalq təşkilatların münaqişəyə dair qəbul etdiyi sənədlər də kitabda təhlil edilir. Bundan əlavə, baş verən hadisələr xronoloji ardıcıllıqla təhlil edilən monoqrafiyada münaqişəsinin nizama salınması istiqamətində Azərbaycan dövlətinin mövqeyi öz əksini tapmış, beynəlxalq təşkilatların fəaliyyətindəki ziddiyyətli cəhətlərə, buraxılan nöqsanlara, eləcə də perspektivdə həlli mümkün və zəruri olan məsələlərə də diqqət yetirilmişdir. Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair sənədlər və xəritələr, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri haqqında məlumatlar və fotolar, eləcə də erməni terror təşkilatları cinayətlərinin xronikası kitabın əlavələr hissəsində verilmişdir. Bununla yanaşı, münaqişənin nizama salınmasına dair BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, Nato və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilmiş sənədlər də ardıcıllıqla və sistemli şəkildə əlavələr bölməsində öz əksini tapmışdır. Kitab ali məktəblərin beynəlxalq münasibətlər, beynəlxalq hüquq, hüquqşünaslıq, politologiya regionşünaslıq, tarix ixtisası üzrə təhsil alan tələbələr və magistrantlar, müəllimlər, eləcə də xarici siyasət məsələləri ilə məşğul olan mütəxəssislər üçün faydalı ola bilər.

Sərgidə yer alan növbəti kitab Eldar İsmayılın "Ermənistan Türklərinin 1988-ci il soyqırımı" adını daşıyır. Kitab 1988-ci ildə Ermənistanda Azərbaycan türklərinin silah gücünə öz ata-baba yurdlarından çıxarılmasından, erməni faşistləri

tərəfindən vəhşicəsinə öldürülən, evləri dağıdılan, talan olunan insanların acı taleyindən bəhs edir. Soyqırıma həsr olunmuş kitablardan biri də Xaqani İsmayılın qələmə aldığı "Azəri soyqırımı" adlı kitabıdır. Kitab 1917-ci il Rusiya devrimindən sonra yaranmış beynəlxalq siyasi şəraitindən sui-istifadə edərək, Bakı və Azərbaycanın bir çox bölgələrində bolşeviklərin himayəsi ilə silahla hakimiyyəti əlində saxlayan erməni daşnaq qüvvələrin Azərbaycanda və bütün Qafqaz bölgəsində ölkəmizi xəritədən silmək... və "Böyük Ermənistan" dövləti yaratmaq... məqsədi ilə törətdiyi azəri (türk)-müsəlman soyqırımı Osmanlı ordusunun bunun qarşısını almaq üçün Qafqaza və Bakıya yürüşü, ermənilərə optimizm vəd edən beynəlxalq şərait, Azərbaycanın istiqlalı və sair məsələlərlə bağlı təxminən bir il yarımlıq tarixi dövrü əhatə edən həm müdhiş faciələr, həm qəhrəmanlıq, həm də düşüncələrin bədii-mənzum səhnəsidir.

Sərgidə yer alan kitablardan biri də Müzəffər Məlikməmmədovun "Qanlı dərə" kitabıdır. "Qanlı dərə" yazıçı-jurnalist Müzəffər Məlikməmmədovun 13-cü kitabıdır. Erməni daşnaklarının və bolşeviklərin 1918-ci ildə Quba qəzasında törətdikləri qırğınlarla əlaqədar 26 il axtarışlar aparmış müəllifin bu kitabı arxiv sənədləri, həmin dövrün mətbuat orqanlarının materialları, işğalçılarla döyüşmüş insanların və şahidlərin xatirələri əsasında qələmə alınmışdır.
*Tədbirin sonunda iştirakçılar təqdim olunan kitablar haqqında öz fikirlərini bildirirlər.*

Azərbaycan tarixinə qanlı hərflərlə həkk olan soyqırımla əlaqədar oxucular məktəblərdə divar qəzeti hazırlaya bilər. Bunun üçün kitabxanaçı kitabxanaya gələn daimi oxucularla bir həftə ərzində *"Qan dəryası"* adlı ***divar qəzeti*** hazırlayır. Əvvəlcə oxucular bu mövzudan bəhs edən ədəbiyyatlarla tanış olub, məlumat toplayırlar. Hər oxucu bu mövzuda öz fikrini

divar qəzetində qeyd edir və slayd hazırlayır. Ən yaxşı rəy bildirən, slayd hazırlayan oxucu kitabxananın müdriyyəti tərəfindən mükafatlandırılır.

Azərbaycan xalqına qarşı 1918-ci il Mart soyqırımı ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də *"Vətən haqqında bir az "* adlı ***şeir müsabiqəsidir***. Kitabxanaçı ilk olaraq mövzu ilə bağlı bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq erməni təcavüzü, Azərbaycanın dəfələrlə rastlaşdığı zorakılıqdan və ən faciəli səhifəmiz olan soyqırımdan bəhs edir. Eyni zamanda bu mövzuda yazılmış əsərlər və kitablardan söhbət açır.

***Kitabxanaçı:*** Azərbaycanlılara qarşı soyqırım siyasətinin təzahürləri son yüzillikdə daha qabarıq şəkildə özünü büruzə verməsinə baxmayaraq, bu əməllərin başlanğıcı çox-çox əvvəllərə gedib çıxır. Xalqımızın zaman-zaman başına gətirilən faciələrin, bəlaların kökləri daha dərindir. Üç yüz ildən artıq bir dövrdə bu siyasət ayrı-ayrı vaxtlarda, müxtəlif formalarda həyata keçirilsə də, məzmun, qayə etibarilə bir məqsədə xidmət edib.

1828-ci il fevralın 10-da Təbriz-Tehran yolunun üstündə yerləşən Türkmənçay kəndində Rusiya–İran müqaviləsi bağlandı. Martın 20-də Rusiya hökmdarı I Nikolay bu müqaviləni təsdiq etdi və elə ertəsi gün yeni inzibati vahid İrəvan və Naxçıvan xanlıqları əraziləri əsasında "Erməni vilayəti" yaradıldı. Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verildi. Əslində, ermənilərin Qafqaza köçürülməri işinə ondan bir il əvvəl hazırlıq aparılmışdı, yəni 1827-ci ildə İrandan Azərbaycan ərazilərinə

köçürülən yüzlərlə erməni ailəsi üçün yerlərdə hər cür şərait yaradılırdı.

1828-1829-cu illərdə Rusiya-Osmanlı müharibəsindən sonra da ermənilər Türkiyədən tarixi Azərbaycan torpaqlarına köçürülürdülər. Hətta bu iş üçün 1829-cu ildə Rusiya tərəfi xüsusi komitə təşkil etmiş və 12 maddəlik ümumi qaydalar müəyyənləşdirmişdi. Bu təkzibolunmaz faktı xatırlatmaq istərdik ki, azərbaycanlılara qarşı son üç yüz ildə soyqırım siyasətinin keçirilməsinin əsas səbəbkarları indiki Ermənistanda yaşayan ermənilər və onların sələfləridir. O sələflər ki, onların hamısı vaxtilə İrandan, Türkiyədən, daha sonra Suriyadan, Livandan, Yunanıstandan Bolqarıstandan, Rumınyadan, Qərbi Azərbaycana – indiki Ermənistana köçüb gəliblər, bəzən də gətiriliblər. Məhz bu proseslərin nəticəsi olaraq 1905-1906-cı illərdə azərbaycanlılara qarşı təkcə Qərbi Azərbaycanda deyil, Şimali və Şərqi Azərbaycanda da soyqırım tədbirləri keçirməyə müvəffəq oldular...

Təkcə Cənubi Azərbaycanın Urmiya şəhəri və onun ətraf ərazilərində ermənilər 150 minə yaxın Azərbaycan əhalisini qətlə yetirmişlər. Məhz bu proseslərin davamı və ən yüksək zirvəsi kimi 1988-1990-cı illərdə Ermənistanda azərbaycanlıların kökünü kəsmək və “türksüz Ermənistan” yaratmaq məqsədilə soydaşlarımıza qarşı əsrin ən ağır və qəddar vəhşilikləri həyata keçirildi... Azərbaycanlılara qarşı soyqırım siyasəti həyata keçirilərkən bu iş bütün dövrlərdə və bütün hallarda əvvəlcə deportasiya, onun ardınca da soyqırımların başlanması ilə müşayiət olunmuşdur. Adətən, köçürülmələr soyqırımlarla başlanmış, soyqırımlarla tamamlanmışdır.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulurdu. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən

kobudcasına pozulur, ana dilində təhsil almalarına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilirdi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verirdi. Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılırdı. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalırdı.

Kitabxanaçının çıxışından sonra iştirakçılar bir-bir səhnəyə yaxınlaşaraq öz şeirlərini deməyə başlayır.

*I iştirakçı Təhməz Tənhanın "Əsas qəsbkar hayeslər" adlı şeiri söyləyir:*

Yayıldı ermənilər  bütün dünyaya,
Hansı dövlətləri misal çəkim mən,
Onlara şahiddir hər dağ, hər qaya,
Səslərə səs verir hər bir qitədən.
İslam dünyasının hər bucağında,
Erməni diasporu təşkil olundu.
Onların işinin hər qurluşunda,
Rusiya tükənməz  dayaq dururdu.
Hansı ki,  daha çox fitnəkardılar.
Onlardan istərdim misal çəkim mən,
Faktları yazmağa ixtiyarım var.
Tarixdən götürürəm həmin faktları,
Yalan sözləri  mən yazmaram heç vaxt,
Qoy bilsin kainat, o əclafları,
Onların ucundan olmuşuq bədbəxt...

*II iştirakçı Eldar İsmayılın  "Yoxdu, yox" adlı şeirini söyləməyə başlayır:*

Torpağımız qıyma-qıyma doğranıb,
Sinəmizə yad gülləsi dəyibdi,
Bir oba var qədim Qazax yurdunda,
Babam ona Karvansara deyibdi,
Məndən ötrü bil İçevan yoxdu, yox!

Zəngəzurun saçlarına düşüb dən,
Bu fəlakət tariximin inadı...
Dərələyəz silinərmi tarixdən?
İrəvandı İrəvanın ilk adı,
Məndən ötrü bil Yerevan yoxdu, yox!
Qılıncımı vaxtsız qoysam qınıma,
Bağışlamaz torpaq məni, yer məni.
Gərək yadı mən bələyim qanına,
Məndən ötrü özgə düşmən yoxdu, yox!..

*III iştirakçı Təhməz Tənhanın "Yanvar günləri" adlı şeirini deməyə başlayır:*

Yadımdadır o gün,
Yanvar günləri.
Tutaraq küçələri ermənilər,
Körpə-körpə uşaqları,
Öldürmüşdülər,
Qulaq, burun yox,
Tanınmazdı sifətləri,
Bir nişan yox...

*IV iştirakçı* "Vətən" adlı şeiri söyləyir:

Bu Vətəndir, ulu Vətən!
Sərhədləri köksümüzdən
Məndən, səndən-hamımızdan
Bircə kömək gümanı var.

Bu Vətənin
O tay, bu tay davası var.
Ay-ulduzlu bayrağının
Qızıl qandan boyası var!..

*V iştirakçı B. Vahabzadənin "Gülüstan" poemasından bir parça söyləyir:*

"Gülüstan" yarandı düz qırx il əvvəl
"Şəhidlər" nəticə, "Gülüstan" təməl.
Azadlıq verilməz bilək bir kərə
Azadlıq alınar, budur doğru yol.
Axı "Gülüstan" dan ta "Şəhidlər" ə
Gedən uzun yoldu keçilən bu yol...

*VI iştirakçı B. Vahabzadənin "Şəhidlər" poemasından bir parça söyləyir:*

Şəhidlər bu torpağa, xalqa səcdə qıldılar,
Haqsızlığın üstündən haqqa körpü saldılar.
Vətəni sevmək üstdə günahkar sayıldılar,
Vətəni sevmək niyə günah olmuş, ay Allah?

Özgənin əlindədir xeyirimiz, şərimiz,
Sərvətimiz daşındı, hey soyuldu dərimiz.
Gözümüz üfüqdədir, açılmır səhərimiz,
Bizə düşən səmada gün tutulmuş, ay Allah?..

*VII iştirakçı X. Rzanın "Mən Azərbaycanam" şeirindən bir parça söyləyir:*

Dinləyin, dinləyin, mən bir kamanam,
Şərqin sinəsindən qopan fəğanam.
Uzaq əsrlərin dərinliyindən
Sabaha üz qoyan sonsuz karvanam.
Sovqatı, bəxşişi açıq sinidə,

Ağzının  sonuncu tikəsini də
Dosta bağışlayan, düşmənə verən
Dumanlı Təbrizəm, çənli Zəncanam
Hər şeyi alınıb tükənsə belə,
Eşqi tükənməyən Azərbaycanam!

Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonda isə qalib və digər iştirakçılara mükafat verilir.

Azərbaycan xalqına qarşı  törədilən 1918-ci il Mart soyqırımı yubileyi ilə əlaqədar kitabxanada *"Qanlı tarix rəsmlərdə"* adlı ***rəsm müsabiqəsi*** də keçirilə bilər. Kitabxanaçı ilk olaraq mövzu ilə bağlı bir neçə  kitab və digər materialları məktəblilərə təqdim edir. Müsabiqə zamanı xeyli sayda məktəblilər müsabiqəyə cəlb olunur və bu haqda məlumatlandırılırlar. Məktəblilər soyqırıma uyğun rəsmlər çəkirlər. İşğal olunmuş torpaqlar, dağıdılmış, ev-eşiklər, viran qalmış  od-ocaq, talan olunmuş mədəniyyət abidələri ilə bərabər nənələrimizin, analarımızın ah-naləsi körpələrin göz yaşları, ümumiyyətlə, əbədi iz qoyan anlar rəsmlərdə həkk olunur.  Şəkillərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Müsabiqənin qaliblərini müəyyən etmək üçün  münsiflər heyəti təyin olunur. Sözügedən heyət fərqlənən rəsmləri diqqətli bir şəkildə nəzərdən keçirərək, qalibləri müəyyən edirlər. Qaliblər təyin edildikdən  sonra xüsusi diplom və fəxri fərmanlarla mükafatlandırılırlar.

31 Mart 1918-ci il soyqırımını məktəblilərə və eləcə də gələcək nəslə tanıtmaq məqsədilə kitabxanaçı məktəblərdə soyqırımdan bəhs edən *"Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda"* başlıqlı ***söhbət*** də keçirə bilər. Bunun üçün kitabxanaçı müxtəlif adda məktəblərə gedir və məktəbin akt zalında müxtəlif sinif şagirdlərinə mövzu haqda məlumat verir. Kitabxanaçı şagirdlərlə yanaşı, tarix və ədəbiyyat müəllimlərini də  tədbirə dəvət edir.

***Kitabxanaçı:*** Hər il mart ayının 31-i Azərbaycanda dövlət səviyyəsində azərbaycanlıların soyqırımı günü kimi anılır. Bu təqvim son yüz ildə Azərbaycan tarixində baş vermiş faciələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Azərbaycanlıların kütləvi şəkildə qırılmasını, repressiyalara məruz qalmasını XX yüzilliyin dünya tarixinin ən qanlı səhifələrindən biri hesab etmək olar. Müəyyən tarixi dövrlərdə bəzi aparıcı dünya dövlətlərinin planlarına uyğun gələn bu siyasəti reallaşdırması üçün müntəzəm surətdə ideoloji, hərbi və təşkilati xarakterli iş aparılmış, tədbirlər həyata keçirilmiş, ən müxtəlif üsul və vasitələrdən istifadə edilmişdir. Xalqımızın tarixi kobud şəkildə saxtalaşdırılmış, maddi və mədəniyyət abidələrimiz, toponimlərimiz erməni tarixçiləri və "ideoloqlarının" təcavüzünə məruz qalmışdır. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni tarixçilərinin və ideoloqlarının uydurduğu "böyük Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımının qanlı fəsadları təkcə böyük Türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə, insanlığa qarşı yönələn ən amansız, dəhşətli cinayətlərə rəvac vermiş, əsrlər boyu bu vandalizmin qurbanı olan Azərbaycan xalqında dərin izlər buraxmışdır.

Bu soyqırımın əsl hüquqi-siyasi qiyməti isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra almışdır. Mart hadisələrinin 80-ci ildönümündə − 1998-ci il martın 26-da ümummilli liderimiz Heydər Əliyevin imzaladığı fərman erməni millətçilərinin hərəkətlərinə verilən dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur. Bu sərəncam Azərbaycanın indiki və gələcək nəsillərini milli yaddaşının qorunması baxımından da bir növ proqram sənədidir. Əsrlər boyu azərbaycanlılara qarşı aparılmış

soyqırımı və deportasiya siyasətini geniş təhlil edən bu tarixi sənəddə 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunması təsbitlənmişdir. Ötən illər ərzində Azərbaycan dövləti bu tarixi gerçəklikləri, xalqımızın iki əsr boyu məruz qaldığı və etnik təmizlənmənin dəhşətli miqyasını beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində xeyli iş görmüşdür.

*Kitabxanaçının çıxışından sonra məktəbin ədəbiyyat müəllimlərinə söz verilir.*

*I müəllim:* Azərbaycan Xalq Cümhuriyyətinin 15 iyul 1918-ci il tarixi qərarı ilə yaratdığı Fövqəladə Təhqiqat Komissiyasının topladığı və rəsmləşdirdiyi çoxsaylı, zəngin sənədlər, materiallar, şahid ifadələri birincilərin verdiyi siyasi qiyməti təsdiqləyən danılmaz arqumentlər və faktlar arsenalıdır. Real, həqiqi tarixi hadisə istənilən zaman hüdudunda heç bir siyasi boya, ideoloji rəng görünməsə də faktların, dəlillərin inkaredilməzliyinə baxmayaraq azərbaycanlıların 1918-ci il mart soyqırımı 70 illik "Qırmızı qaranlıqlar" (Ə.Hüseynzadə) dövründə görünməz olmuşdur. Sovet senzura aparatının bütün cəhdlərinə baxmayaraq azərbaycanlıların soyqırımına həsr olunmuş əsərlər mənəvi terror dalğalarından salamat çıxaraq müstəqilliyimizin bərpasından sonra "yaşamaq hüququ" qazanmışdır. Nəzərə alınmalıdır ki, ermənilərin azərbaycanlılara qarşı ilk kütləvi qırğın epidemiyası 1905-1906-cı illərdə bütün Azərbaycanı bürüyəndə Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası", Məmməd Səid Ordubadinin "Qanlı illər" adlı milli yaddaş abidələrinin təməlini, bünövrəsini qoydular. Sonrakı faciələrdə bu ənənə inkişaf etdirilərək tarixi hadisələr bədii ədəbiyyatda geniş, əhatəli təcəssümünü tapmaqda idi. Diqqətə çatdırmalıyıq ki, əldə etdiyimiz, haqqında məlumat topldığımız bədii əsərlərin hamısı "mart hadiseyi-ələiyyəsi"ndən sonra yazılmış, müəllifləri soyqırımı aksiyasının şahidləri və zərərçəkənləri olmuşdur.

Tanınmış ədiblərdən Cəfər Cabbarlı ailəsi ilə erməni bandalarının hücumuna məruz qalmış, döyüşlər evlərindən azacıq yuxarı, "Ceyran bağçası" deyilən yerdə getdiyindən qadınları, uşaqları və qocaları "qar anbarı" adlanan sığınacaqda gizlətmişdi. Bir gün sonra isə daha təhlükəsiz yerə − Xızıya aparmaq məqsədilə anası Şahbikə xanımı, əmisi qızı Sona xanımı, böyük qardaşı Hüseynqulunun qızlarını və qonşuları Məşədi Əbdülkərim kişi ağır yaralanmış, ailə üzvləri təsadüf nəticəsində ölüm kabusundan xilas olmuşdur.

Tənqidçi, nasir, jurnalist Seyid Hüseyn yazırdı ki, "Mart hadisələri zamanında İsmailiyyə binasından çox da uzaq olmayan bir məhlədə erməni əsgərləri tərəfindən mühasirə edilmişdim... Pulemyotların dırıltısını, topların gurultusunu eşidirdim" ("İstiqlal" qəzeti, 1335, 4 şubat).

Erməni bandalarının həbs edərək 3 gün Mailov teatrında saxladığı və yandırmaq istədiyi 4000 nəfər azərbaycanlıların içərisində böyük dramaturq Hüseyn Cavid də olmuşdur. Özünümüdafiə dəstələrinin ermənilərinin bəd niyyətlərindən xəbər tutması və hadisəyə müdaxiləsi nəticəsində qanlı aksiya həyata keçirilməmişdir.

Tanınmış şair, nasir və pedaqoq Hacı Səlim Səyyahın ən yaxın qohumları və dostları mart faciəsinin qurbanı olmuşdur.

Üzeyir Hacıbəyov, Məhəmməd Hadi, Mirzə Bala Məmmədzadə, İbrahim Xəlil və digər sənətkarların, aydınların, söz adamlarının mart faciəsinin şahidləri olduqları müxtəlif səpkili əsərlər yazdıqları oxuculara məlumdur.

1918-ci ilin Mart soyqırımı gənc olmasına baxmayaraq, Cəfər Cabbarlının yaradıcılığında xüsusi yer tuturdu. O, əsasən Çəmbərəkənd qəbiristanlığında, indiki Şəhidlər xiyabanında dəfn olunan Mart faciəsi qurbanlarının xatirəsini anmaq üçün "Dur, ey xalq olan millət" sərlövhəli bir mərsiyə də yazmışdır. Dərvişlər, əsasən, gənclər bu mərsiyəni şəhidlərin 7-sində və

40-da məscidlərdə və küçələrdə günahsız qurbanlar üçün göz yaşı tökmək, əslində isə xalqı maskalı düşmənə qarşı səfərbərliyə çağırmaq məqsədilə oxuyurdular.

*Bu misraları oxumaq üçün məktəbli önə çıxaraq oxumağa başlayır.*

Gülzari –vətən soldu,
Millət xari-zar oldu,
Hamı payimal oldu,
Dur, ey xalq olan millət.

Bir yanda ədu çəllad,
Bir yan naləvü-fəryad,
Ol bu zülmdən azad,
Dur, ey xalq olan millət.

Əl çək bu həqarətdən,
Qurtar bu əsarətdən,
Xar ol bu xəcalətdən,
Dur, ey xalq olan millət.

Şeir-mərsiyə, yas mərasimlərində oxunmaq məqsədilə yazılsa da, dərin ictimai məzmun kəsb edir. Müəllif bu şeirində “əbu-cəllad” lara erməni terrorçularına və onların havadarlarına qarşı zülmdən və əsarətdən azad olmaq üçün “xar olan millət”i ayağa durmağa, səfərbərliyə və mübarizəyə səsləyir. Xalqını “na ləvü-fəryad”lardan oyanmağa, “payimal” olmaqdan usanmağa, vətənin, millətin “xarizar”ından bezib qaniçən, başkəsənlərə qarşı haqqını və şərəfini qorumağa çağırır. Yazıldığı vaxtdan 85 il keçməsinə baxmayaraq, əsər bu gün də aktual səslənir.

Cəfər Cabbarlının eyni mövzuya həsr etdiyi digər dəyərli sənət əsəri onun “Əhməd və Qumru” hekayəsidir. Əsərin mövzusu əslən şamaxılı olan iki gəncin − Əhməd və Qumrunun saf və təmiz məhəbbətindən, şirin arzularından, bir-birilərinə

layiq yüksək mənəviyyata malik insan olmaqlarından, mart faciəsinin bu günahsız şəxslərə gətirdiyi müsibətlərdən bəhs edir. Müəllif valideyinləri erməni quldurları tərəfindən qətlə yetirilmiş, evləri talanmış Əhməd və Qumrunu "Böyük pəncərələri qara kömürlərə dönmüş, altun divarları matəmlərə bürünmüş, "əti tökülmüş baş skletinə bənzəyən möhtəşəm" İsmailiyyə binasının önündə dilənçi vəziyyətində qarşılaşdırır. Faciə və məhrumiyyətlərin məngənəsində tanınmamış hala düşmüş, "Yaralıyam, şikəstəm, Şamaxı əsiriyəm" – yalvarışlarından bir-birini çətinliklə tanıyan iki sevgili görüşlərinə sevinsələr də bir-birini qucaqlamırlar, daha doğrusu qucaqlaya bilmirlər. Çünki erməni barbarları onların qolunu kəsmişdi. Hekayə vəhşiliyə, barbarlığa, qəddarlığa qarşı oxucu qəzəbini, nifrətini ovxarlamaqla yanaşı, haqqa, ədalətə rəğbət hissi aşılayır.

Mətni bu günədək əldə edilməsə də, afişa və qəzet məlumatlarından aydın olur ki, Cəfər Cabbarlının "Bakı müharibəsi" adlı 5 pərdəli, 7 şəkilli dram əsərinin ilk pərdələri mart faciəsində Bakıda törədilən ağlasığmaz dəhşətlərdən bəhs edir. "Bəsirət" qəzetinin 13 sentyabr 1919-cu il tarixli 246-cı sayında bu səhnə əsəri haqqında yığcam bir elanda yazılırdı: "Azərbaycan Dövlət Teatrosunda zilhüccənin 20-si, sentyabrın 16-da Bakı türk səhnəsi aktyorlarının iştirakı ilə artist Abbas Mirzə Şərifzadənin təhti-idarəsində Azərbaycanımızın paytaxtı Bakı şəhərində mart hadiseyi-ələmiyyəssindən sonra düşmənlər əlində qalıb, sonralar qəhrəman türk ordusu tərəfindən mühasirə edilib, xilasının 1 illiyi münasibətilə gənc şair və mühərrirlərimizdən Cəfər Cabbarzadənin yeni yazmış olduğu "Bakı müharibəsi" draması mövqeyi tamaşaya qoyulacaqdır. Həmin faciədə Bakı şəhərində mart hadiseyi-ələmiyyəsindən sonra müsəlmanlara edilən zülm göstəriləcəkdir".

*II müəllim*: Digər bir anonsda maskalanmış, hiyləgər Stepan Şaumyanın və digər ermənilərin əsl iç üzünü açan obrazlarının "Bakı müharibəsi" ndə müəllifin peşəkarlıqla yaratdığı bildirilir. Cəfər Cabbarlının yaxın dostu, tələbə yoldaşı Cümhurriyyət dövründə parlamentdə iş yoldaşı Mirzə Bala Məmmədzadənin də (1898-1959) yaradıcılığında mart qırğınları xüsusi yer tutur. O da özünün "Bakı uğrunda müharibə" faciəsinin ilk pərdələrini dostu Cəfər Cabbarlı kimi mart soyqırımına həsr etmişdir. Məhz Mirzə Bala Məmmədzadə Bakı faciəsini ilk dəfə öz adı ilə qətli-am, yəni ümumin qətli, soyqırımı adlandırmış, caniləri adbaad göstərmişdir. O yazırdı: "31 mart 1918-ci sənə. Bu gün... Bakımızda qanlar axıdılmış, evlər talanmış, ata-babalarımız şəhid düşmüş, ana-bacılarımız əsir edilmiş. Bu gün Bakı əhli kəndi yurdunda qətliamə, əsarətə və məhkumiyyətə qalmışdır. Bu gün Bakının ətrafından axan neft çeşmələri qan çeşmələrinə mübəddəl olmuşdur. Bu gün Bakı sahilini yuyan Quzğun dəniz qan dənizinə çevrilmişdir. Bu gün şaumyanlar, suxartsyevlər... oyanmış türk mənliyini... öldürmək üçün daşnak qüvvələrinə mürüciətən unudulmayacaq qanlı günlər vücudə gətirmişdilər".

Mirzə Bala Məmmədzadə "Açıq söz", "Gənclər yurdu", "Bəsirət", "İstiqlal", "Azərbaycan" və başqa jurnal və qəzetlərdə elmi, publisistik, ədəbi-bədii əsərlərlə mütəmadi çıxış etmişdir. Onun redaktorluğu ilə ilk sayı 23 iyul 1918-ci ildə Tiflisdə işıq üzü görən "Gənclər yurdu" jurnalında çap etdirdiyi "Əksinqilabçılar" hekayəsinin qəhrəmanı Moskva Darülfününunda oxuyan, bolşevik əqidəli "Azərbaycan türkü Hüseyin bəydir. Hüseyin bəyin, fikrincə, hürriyyət, istiqlal istəyən" Azərbaycan, Türküstan, Tatarıstan, Krım türk gəncləri doğurdan da əksinqilabçılardır. Müəllif Hüseyn bəy haqqında tam təsəvvür yaratmaq üçün şahidi olduğu Bakı qətli-amından dəhşətli bir mənzərəni təsvir edir. "Bakı həyəcanlı günlər keçirirdi. Şəhər od içində yanırdı. Pulemyot, top, tüfəng,

qurşun səsilə paraxodlarının bombardmanı, camaatin qışqırığı, çoluq-çocuğun, qadın-qızların ah-fəryadı məhşəri andırırdı. Ölən, yanan, qaçan, çığıran, dağıdan, kəsən, kəsilən bir-birinə qarışmışdı”. Tükürpədici bu müsibətdən təəssüflənməyən Hüseyn bəy milli qırğının günahsız qurbanlarına xəcalət çəkmədən yenə “əksinqilabçılar” deyir. Bu tip “obrazovannı” ları böyük satirik şair Mirzə Ələkbər Sabir hələ XX əsrin əvvəllərində xalqa dəqiq nişan verirdi:

“Neyləyim, ey vay! Bu urus başdılar,
... Cümləsi kafirlərə yoldşdılar”.

*III müəllim:* Seyid Hüseyn mart hadiseyi-ələmiyyəsi mövzusunda iki hekayə yazıb. “İsmailiyyə” “İstiqlal” qəzetində (1335,4 şübat, N-avqust, N-256, 260, 261) çap edilmişdir (hər iki hekayəni həmkarım, f.e.d. Alxan Bayramoğlu müasir əlifbaya çevirərək “Azərbaycan” və “Açıq söz” jurnallarında qədirşünaslıqla yazdığı ön söz ilə birgə vermişdir). Seyid Hüseynin fərqli vaxtlarda yazdığı hər iki hekayəsi öz ifadəsi ilə desək: “İsmailiyyə – o milli əməllərimizin doğrulduğu yer, o möhtəşəm bina o Azərbaycan fikrini, Azərbaycan hürriyyət və istiqlaliyyəti-məfkurəsini bir ana kimi bəsləyib tərbiyyə verən, millət arasında nəşr edən mərkəz, o gözəl və sevimli bina” haqqında idi. Hekayələrdə “İsmailiyyə” canlı obraz, əsərin baş qəhrəmanı, namus rəmzi, mədəniyyət emblemi kimi təsvir edilmişdir. Ermənilər təkcə köməksiz, ixtiyar insanları deyil, məscidlərin, mətbəələrin, mədəniyyət abidələrinin də üzərinə hücuma keçmiş, onları məhv etməkdən, yandırıb-dağıtmaqdan çəkinməmişlər. Öz ulularının barbar xislətinə sadiq qalmışdılar. Seyid Hüseyn Azərbaycan oxucusuna “İsmailiyyə” memarlıq abidəsi, istiqlal məfkurəsinin beşiyi kimi təqdim edərək, onu yandıranlara nifrət aşılamağa nail olmuşdur.

1918-ci il mart soyqırımının ədəbiyyatda bədii əksini arayarkən “Əli və Nino” romanının adını çəkməmək

mümkünsüzdür. XX əsrin 20-ci illərində yazılan, ilk dəfə 1937-ci ildə Vyanada alman dilində çıxan, mühacir soydaşımız Məcid Musazadə tərəfindən ilk dəfə dilimizə çevrilən, Cümhuriyyət dövrünün siyasi hadisələrinə də toxunan "Əli və Nino" romanı 1990-cı ildə Bakıda çap olunduqdan sonra Azərbaycanda populyarlaşmışdır. Əsərdə bir sıra kölgəli məsələlərə işıq salınmaqdan əlavə, Bakıdakı mart qırğınlarının dəhşətli səhnələri əks edilmişdir. Roman qəhrəmanları − Əli xan, Nino, Məhəmməd Heydər, Seyid Mustafa, Əsədulla, İlyas bəy qırğın ərəfəsində şəhərin müdafiəçiləri, əhalini erməni bandalarının hücumlarından qoruyanlar idi. "Əli və Nino" romanının alman dilindən əlavə fransız, ingilis və türk dillərinə tərcümə edilib böyük tirajla yayıldığını nəzərə alsaq, əsasən, 1918-ci ilin martında ermənilərin azərbaycanlılara qarşı soyqırımı haqqında geniş Avropa auditoriyası üçün yığcam və təsirli üslubda məlumatların ilk daşıyıcısına çevrilmiş, Qərbdə əsl həqiqətin formalaşmasına əhəmiyyətli xidmət göstərmişdir.

Hacı Səlim Səyyah (1869-1933) əslən keşləli olsa da, Vilnüsda anadan olmuş, on il Bakıda yaşamış (1873-1883), dörd il Qahirənin "Əl-Əhzəd Universitetində oxumuş, Suriyada "Şehr-ül-hilayə" adlı kitabı çıxmışdır. 1900-cü ildə Bakıya qayıdan şair "Nəşri-maarif" xeyriyyə cəmiyyətində 1 saylı məktəbin direktoru olmuş, "Məktəb" adlı mətbəə açaraq 1915-17-ci illərdə iyirmiyədək şeir və nəşr kitablarını çap etdirmişdir. Mart hadisələri ərəfəsində Bakıda faciənin iştirakçısına çevrilən Hacı Səlim Səyyah bu mövzuda bir neçə şeir və məqalə yazmışdır. Bunlardan ən təsirlisi "Mart ayı" sərlövhəli təxmisidir. Şairin təsvir etdiyi hadisəni Şamaxı sakini Cəmo Cəbrayılbəyli FTK-ya verdiyi izahatında belə yazırdı: "1918-ci il martında ermənilər top mərmiləri ilə Cümə məscidinə və onunla üzbəüz yerləşən mədrəsəni xarabalığa çevirdilər. O zaman məsciddə çoxlu qadınlar, uşaqlar, qocalar

gizlənmişdi. Erməni bandaları məscidə soxulur, insanların gözlərini çıxarır, dilini, burnunu və qulaqlarını kəsirlər, üzlərinin başlarının dərisini diri-diri soyurdular. Sonra işgəncə ilə öldürülürlər. Məsciddə gizlənən arvad-uşaqları isə qatillər diri-diri yandırırlar”. Bu tükürpədici dəhşətli mənzərə yazıçı təxəyyülünün məhsulu deyil, şahid ifadəsi, tarixi faktdır. Bu həqiqətlər amansızlığın və qəddarlığın miqyası baxımından yalnız erməni təfəkkürünün məhsulu, erməni cəza və işgəncə üsulunun növləridir. Dünyada analoqu olmayan, təkrarsız işgəncə növlərinin, vəhşilik nümunələrinin şahidi olan Hacı Səlim Səyyah “Mart ayı” şeirində yazırdı:

Mart ayı... Allah amandır, əlhəzər, min əlhəzər!
Mart ayı, çox qəmli aysan, tez qurtar get müxtəsər.
Sən kimi mənhus bir aydan deyil, məmnun bəşər.
Ərlər məğlub edib, əğyarə sən verdin zəfər.

Bu günün misli keçən il, Allahım gözdən iraq,
Ermənilər əldə bomba, süngü, xəncərlər, bıçaq,
Kəsdilər evlərdə minlərcə gəlin, arvad, uşaq,
Südəmərlər nizə nükində çalardı əl-ayaq.
Nalə, yalvarmaq bu qövmdə hərgiz etməzdi əsər.

Bu haman gündür odlar içində min cavan,
Yandı kül oldu, aman Allah, aman Allah, aman!
Vəzli-həml etdi fəlakət içrə yüzlərcə zənan,
Qan idi: məscid, mədaris, küçə, evlər: həpsi qan.
Qanə qərq etdi müsəlmanı bu qövmi-bəd gühər.

*IV müəllim:* Məhəmməd Hadinin “Şühadeyi hurriyyətimizin ərvahinə ithaf” şeiri mart soyqırımının birinci ildönümü münasibətilə yazılmış və “Azərbaycan” qəzetinin 31 mart 1919-cu il tarixli 147-ci sayında çap olunmuşdur. Şair soyqırımın qurbanlarını haqlı olaraq azdlıq uğrunda canından keçmiş şəhidlər adlandırır.

Sizin məzarınız  iştə qülubi-hürriyətdir,
Bu sözlərim ürəyimdən qopan həqiqətdir.
Sizi unutmayacaq şanlı millətim əsla,
Əmin olun  buna, ey zinətçi cəhani-fəna,
Sizinlə buldu bu millət həyati nur istiqbal.

Hələ ötən əsrin  əvvəllərində erməni vəhşiliyinin  canlı şahidi olmuş Məmməd Səid Ordubadi tarixi faktlar və dərin müşahidələr əsasında dəyərli bir kitab yazmışdır. 1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman qırğınların şahidi olmuşdu. Ermənilərin Azərbaycanın hər yerində törətdiyi dəhşətlər haqqında ətraflı xəbərdar olan Məmməd Səid Ordubadi  müxtəlif  bölgələrdən  ünvanına gələn 245 şahidin yazdığını toplayaraq sənədli bir əsər − "Qanlı illər"i yaradıb. Yazıçı bu əsərində ermənilərin 300-dən artıq kənddə törətdiyi faciələri, ağlagəlməz işgəncələri, talanları faktların dili ilə qələmə alıb. Hələ çar senzurasının hökm sürdüyü bir dövrdə erməni daşnaklarının onlara söykənərək həyata keçirdiyi soyqırımı barədə fakt və şahidlərin söylədikləri hadisələrin əsasında  yazan Ordubadi  bu əsəri 1908-ci ildə tamamladı. "Qanlı illər" çar hökumətinin himayəsi və erməni Daşnaksütyun partiyasının fitnələri  ilə törədilən milli qırğınları olduğu kimi təqdim etdi. Təəssüf ki, fakt və dəlillər əsasında yazılan  bu kitabın taleyi bəd gətirdi. Həqiqətləri açıq-aydın dediyinə  və bu milli  cəsarətinə görə ermənilərin güdazına gedən Məmməd Səid Ordubadi 1914-cü ildə Culfada həbs edilərək Rusiyanın Saritsin (indiki adı Volqoqrad) şəhərinə sürgün olundu. Həmin əsərdə Ordubadi faktlar əsasında azərbaycanlıların onlara məxsus dədə-baba ocağında ermənilərin insanlığa sığmayan vəhşilikləri barədə ürək parçalayan məlumatlar verib. Bu əsəri soyuqqanlılıqla oxumaq qeyri-mümkündür. Erməni xəyanətini, dəhşətini olduğu kimi əks etdirən "Qanlı illər" əsərində namərd qonşularımızın necə hiyləgər, bəd əməl,

qaniçən, türk qanına susamış cani olduqlarını törətdikləri fəlakət və bəlalarla səciyyələndirib. Məmməd Səid Ordubadinin bu əsəri erməni vandallarının vəhşiliklərini güzgü kimi əks etdirib. "Qanlı illər" adlı bu əsər 1911-ci ildə Ağa Murtuza Muxtarov tərəfindən nəşr edilərək yazılmışdır. Sonralar nədənsə bu qiymətli sənədlər toplusu uzun illər oxucuların diqqətindən kənarda qalmışdır. Nəhayət, səksən ildən sonra, 1991-ci ildə həmin kitab nəşr edilib. Ölməz ədibin bu əsəri çox böyük həqiqətlərdən xəbər verir. Onun tədqiqi və təbliği, xüsusən xarici dillərə tərcümə edilib geniş yayılması vacibdir. "Qanlı illər" əsəri bəzi parçaları oxucuların diqqətinə çatdırmaq istəyirəm.

*Məktəblilər əsərdən müəyyən parçalar səhnələşdirirlər.*

Erməni zülmünün hər üzünü görmüş yazıçı, böyük ədib Məmməd Səid Ordubadi "Bu qanlı olayların səbəbi nə idi?" sualını belə cavablandırırdı:

*Birincisi:* Erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı.

*İkincisi:* Məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər. Bunlardan şahid Naxçıvan uyezdinin naçalniki Angil kimi vicdansızların fitnəkar hərəkətləridir. Belə ki, yanan atəşləri söndürməyib, əksinə, caniləri bir sıra cinayətlərə sövq edirdi.

*Üçüncüsü:* Müsəlmanların elmsizliyi və müasir işlərdən bixəbər olmalarıdır. Ermənilər yalnız hiylə və siyasətlə iş tutub bir ovuc könüllü əsgərlə müsəlmanların qüvvəsini əzmək istəyirdilər. Belə ki, Bakıda sülh edib müsəlmanları yatırmaqla Şuşada müharibəyə başlayır, sonra Şuşada sülh edib Gəncə quberniyasının sair yerlərini yandırmağa və dağıtmağa təşəbbüs edirlər. Müsəlmanlar isə əvvəlcə bunları bilməyib sonralar

gözlərini açdılarsa da, ermənilər Türkiyədən və İrandan əsgər yığıb müsəlmanları əzməyə çalışırdılar.

*Dördüncüsü:* Ermənilərin avtonomiya-idarə muxtariyyəti həvəsində olmalarıdır. Zira ermənilərin hər aybaşı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal etmələri bunlara kamil bir sübutdur.

Müraciət etdiyimiz bədii nümunələrlə tarixi faktları, Fövqəladə Təhqiqat Komissiyasının topladığı və rəsmləşdirdiyi materialları, sənədləri müqayisə və təhlil etdikcə, belə qənaətə gəlmək olur ki, sənət əsərlərində həyat həqiqətləri daha inandırıcı, qabarıq və təsirli verilmişdir.

Faciənin səbəbləri-kökü və məqsədi bədii əsərlərdə düzgün müəyyənləşdirilmiş, erməni vəhşiliyi, erməni qəddarlığı inandırıcı, tünd boyalarla əks etdirilmişdir. Zorakılığa, zülmə və amansızlığa nifrət, haqqa, ədalətə, hürriyyətə rəğbət hissinin aşılanması azərbaycanlıların soyqırımından bəhs edən bədii əsərlərin əsas qayəsini təşkil edir. Vətənpərvər ədiblərimizin ürək yanğısını, fəryadını sözündə, şərtində yaşadan bu əsərlərin arxiv qaranlığından çıxarılaraq milli istiqlal işığında mükəmməl tədqiqində və təhlilinə ehtiyac duyulmaqdadır. *Tədbir şagirdlərin mövzuya uyğun şeirləri ilə sonlanır.*

31 Mart Soyqırımı Günü ilə əlaqadar olaraq, kitabxanada keçirilən tədbirlərdən biri də *"Al qana boyanmış bahar günləri"* adlı ***anım gecəsidir.*** Gecə oxuculara həmin günün mahiyyətini daha da yaxından tanıtmaq üçün nəzərdə tutulur. Anım gecəsinə tarixçilər, tarixi şəxsiyyət və siyasətçilər, ictimai elm xadimləri, yazarlar, tarix müəllimləri, Xocalı faciəsinin canlı şahidləri dəvət olunur. İlk olaraq 31 Mart soyqırımı ilə bağlı slayd verilir. Slayddan sonra aparıcılar gecəyə keçid alırlar.

*I aparıcı:* Salam dəyərli qonaqlar, tədbir iştirakçıları! 31 Mart soyqırımı Günü ilə əlaqədar şanlı tarix dolu qan yaddaşımızdan qopub gələn anım gecəsinə xoş gəlmisiniz. Biz bu gün sizlərlə

dünənimizə, lap yaxın keçmişimizə qayıtmaq istəyirik. O, keçmişimizə ki, ata-analarımız, nənə-babalarımız o anların lap yaxından şahidi olmuşdular. O ağır, qanlı-qadalı günlər ömür səhifəmizdən gəlib keçib. O keçmişimiz ki, tariximizə tarix yazılıb – 31 Mart Soyqırımı Günü. O tarix ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gücləndirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları tarixi etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi, mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

*II aparıcı:* Tarixin hələ tam açılmamış səhifələrindən biri olan bu soyqırım hadisəsi xalqımıza qarşı dəfələrlə törədilmiş kütləvi qətl kimi qiymətləndirilməlidir. Tarixi faktlar sübut edir ki, son iki əsrdə azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş bu soyqırım siyasəti nəticəsində soydaşlarımız qədim Azərbaycan torpağı olan, indi Ermənistan adlandırılan öz doğma torpaqlarından didərgin salınmışlar. Ümumiyyətlə, XIX əsrin sonlarından başlayaraq ermənilərin Azərbaycan xalqına davamlı şəkildə apardığı terror və soyqırım siyasəti bu gün də Dağlıq Qarabağda, Ermənistanla həmsərhəd bölgələrdə həyata keçirilməkdədir. Cənubi Qafqaz bölgəsində sülhün, siyasi sabitliyin, birgəyaşayış qaydalarının təhlükə mənbəyinə çevrilən və terroru dövlət səviyyəsində dəstəkləyən Ermənistan Respublikası tarixən bu coğrafiyada törətdikləri qanlı olayları yenidən dirçəldir, günahsız insanlara, qocalara, uşaqlara, qarşı soyqırım siyasətindən əl çəkmək istəmir.

*I aparıcı:* 1930-cu illərdə azərbaycanlıların bir qismi düşünülmüş repressiyalara məruz qalıb, tarixi torpaqları olan

sonralar Ermənistan ərazisinə daxil edilən qədim İrəvan xanlığlarından və digər yerlərdən Orta Asiya ərazisinə sürgün ediliblər.

Aprel ayında Quba qəzasına göndərilmiş daşnak dəstəsinin komandiri Hamazasp bildirmişdir: "Mən erməni xalqının qəhrəmanı və müdafiəçisiyəm... Buraya qayda yaratmaq və Sovet hakimiyyətini qorumaq üçün gəlmişəm... Mənə Xəzər dənizindən Şahdağadək olan ərazidə bütün müsəlmanları məhv etmək əmri verilmişdir".

*Arxivlərdə erməni vəhşiliyini təsdiqləyən sənədlər var. Bunları eynilə sizlərə təqdim edirik.*

General Harvurd Amerika Senatına verdiyi 16 oktyabr 1999-cu il tarixli məlumatında yazırdı: "Qara dənizdən İran ərazisinə qədər gəzdim, amma erməni məlumatını təsdiq edən heç bir şey tapmadım". Əslində, arxivlərdə dünya dövlətlərinin bir çox görkəmli alimlərinin, səyyahlarının da erməni yalanını, qəddarlığını, hiyləgərliyini ifşa edən yüzlərlə sənəd var. Çox təəssüf ki, ermənilərin arxasında dayanan bəzi dövlətlər arxivlərin açılmasına heç vaxt meyilli olmayıblar. Çalışıblar ki, ermənilərin törətdikləri qanlı cinayətləri ört-basdır etsinlər.

Dünya tarixinə nəzər salsaq, bəlkə də, ermənilər qədər vəhşilik törədən ikinci bir millət görmərik. Ötən əsrin bütün dönəmlərində – 1905-1907, 1918-1920, 1946-1948-ci illərdə törədilən cinayətlər də, soydaşlarımıza verilən işgəncələr də bir-birinə bənzər olub. Ermənilər körpələri divara mismarlayıblar. Qadınları lüt-üryan halda saçlarından asıb nişan alıblar. Kimin gülləsi tapşırılan hədəfə dəyərmişsə, ona böyük mükafat verilərmiş. İnsanları qaynar su ilə yandırıb sonra cəsədlərini itlərə atarmışlar. Ən dəhşətlisi də budur ki, qaniçən Stepan Şaumyan Bakıda otura-otura bütün daşnaklara başçılıq edirdi. Onun oğlu isə daşnak liderindən biri kimi pulemyotçuların başında dayanırdı.

... O vaxtdan çox illər ötməsinə baxmayaraq, erməni xisləti dəyişməyib. "Daşnaksütyun" partiyasının qanlı əməlləri davam edir və yenə günahsız azərbaycanlılar ağır işgəncələrə məruz qalırlar. Ermənilərin qaniçən əməlləri sanki bir proqram üzrə icra olunur. Bu gün də Xocalıdan çəkilən lentləri dünyaya yayımlayıb özlərini ölən, qırılan tərəf kimi göstərirlər. Bəlkə də, ən dözülməzi elə budur. Ermənilərin saysız-hesabsız qanlı cinayətləri var, onlar tarix qarşısında cavab verməlidirlər. Təkcə Kəlbəcərin Ağdaban kəndində törətdikləri əməllər bəs edər ki, erməni qaniçənləri beynəlxalq məhkəmə qarşısına çıxarılsın. 1992-ci il aprelin 7-dən 8-nə keçən gecə Ağdaban kəndi tamamilə erməni quldurları tərəfindən yandırılmış, 779 nəfər dinc sakinə qeyri-insani işgəncələr verilmişdir. 67 nəfər qətlə yetrilmişdir. 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılmışdır.

*II aparıcı:* Quba Soyqırımı üzərində Memorial Kompleksi açılmamış sirlərdən xəbər verən yerdir. Bu məzarlıq 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilmişdir. 2007-ci ilin iyulundan Azərbaycan Milli Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən məzarlıqda başlanılan geniş tədqiqat işlərinə 2008-ci ilin sentyabrında yekun vurulmuşdur. Məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımının nəticəsi olduğu müəyyən edilmişdir.

2009-cu ildə Azərbaycan Prezidentinin sərəncamından sonra Nazirlər Kabineti kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı hazırladı. Kütləvi məzarlığın yerləşdiyi ərazidə xatirə kompleksinin ucaldılması və abadlıq işlərin aparılmasına başlanıldı.

*I aparıcı:* Biz problemin beynəlxalq hüquq normaları əsasında ədalətli həlli üçün çalışırıq. Ermənistanı da elementar hüquq normalarına əməl etməyə, reallıq hissini itirməməyə məqbul həll

variantları istiqamətində addımlar atmağa çağırırıq. Lakin o da aydın və birmənalı qəbul edilməlidir ki, münaqişənin həllinin təməl prinsipi Azərbaycanın ərazi bütövlüyü, məcburi köçkünlərin doğma yaşayış yerlərinə qaytarılması olmalıdır. Biz azərbaycanlılara qarşı ermənilərin törətdiyi təcavüz və soyqırımının dünya dövlətlərinin parlamentləri, beynəlxalq təşkilatlar tərəfindən tanınmasına və pislənməsinə çalışmalıyıq. Həm də bu zaman erməni şovinist millətçilərindən fərqli olaraq bundan siyasi, maddi və ya maliyyə kompensasiyaları qazanmaq üçün faydalanmaq istəmirik. Bizim maddi sərvətlərimiz kifayət qədərdir. Odur ki, biz sülh şəraitində yaşamaq, ölkəmizi inkişaf etdirmək, tarixi ədalətin və həqiqətin bərpa olunmasını, işğal və soyqırımı siyasəti həyata keçirənlərin tanınmasını və ifşa olunmasını istəyirik. Düşünürük ki, indiki zamanda digər xalqlara və dövlətlərə qarşı ərazi iddiaları ilə çıxış etmək tarixi anaxronizmdir və bu hərəkət həmin xalqın özünə ciddi fəlakət gətirən bir bəladır.

*II aparıcı:* İndi ermənilər özlərini məzlum millət kimi qələmə vermək üçün dəridən-qabıqdan çıxır, dünya ictimaiyyətinə yanlış məlumat verməkdən usanmırlar. Halbuki tarixi sənədlər, araşdırmalar göründüyü kimi, bunun tam əksini sübut edir. Bizim yolumuz düzgün, amallarımız, məqsədlərimiz saf və təmizdir. Biz xalqımızın tarixini, dünəninin və bu günün həqiqətlərini hamının daha yaxşı bilməsinə və qəbul etməsinə çalışmalıyıq. Bunun üçün Azərbaycan hökuməti, bütün vətəndaşlarımız, xarici ölkədəki azərbaycanlı icmaları səylərini birləşdirməli, daha ardıcıl və səmərəli iş aparmalı, təsirli tədbirlər görməlidirlər. Bir daha soyqırımı qurbanlarının əziz xatirəsini dərin hüznlə yad edir, onlara Allahdan rəhmət diləyir, xalqımıza ümummili vəzifələrimizin həlli yolunda uğurlar arzulayırıq.

## Ədəbiyyat siyahısı

**Abışov V. Ş.** Azərbaycanlıların soyqırımı : (1917-1918-ci illər). - Bakı : Nurlan, 2007. - 176 s.

**Aşırlı A.** 31 mart soyqırımı: 1918-1920-ci illər mətbuatında. - Bakı : Elm və Təhsil, 2011. - 100 s.

**Azərbaycan xalqına qarşı** 1918-ci il mart soyqırımı : 3 cilddə Sənədlər toplusu. I cild : "26 Bakı komissarları" nın əsl tarixi. - Bakı : Çaşıoğlu, 2009. - 776 s. - (Azərbaycan tarixi : İlk mənbələr).

**Azərbaycanlıların soyqırımı: tarixin** qanlı salnaməsi. I cild. - Bakı : OSKAR NPM, 2012. - 446 s. - Kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf edilir. - (super cildli qutuda).

**Azərbaycanlıların soyqırımı: tarixin** qanlı salnaməsi. II cild. - Bakı : OSKAR NPM, 2012. - 424 s. - Kitab Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əbədiyaşar xatirəsinə ithaf edilir. - (super cildli qutuda).

**Dəmirov Y. B**. Qarabağ sindromu: Həqiqət və reallıq. - Bakı : Şəms, 2007. - 256 s.

**Erməni terroru**. - Bakı : Vətən, 2005. - 168 s. : foto, xəritə, il. - Azərbaycan, rus və ingilis dillərində.

**Əzizov E.** Difai : XX əsrin əvvələrində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. - Bakı : CBS Polygraphic production, 2009. - 360 s.

**Görüryılmaz M.** Türk Qafqaz İslam ordusu və ermənilər (1918) : tarixi ədəbiyyat. - Bakı : Qismət, 2008. - 408 s. xəritə, foto.

**Həkimova N. M.** Ermənilərin tarixi cinayətləri ziyalıların qan yaddaşında: Məqalələr toplusu. - B.: Maarif, 2009. - 360 s. : rəng.şək.

**Hüseyn S.** Həzin bir xatirə. "İsmailiyyə" ; "İsmailiyyə" : məqalələr : 31 Mart Azərbaycanlıların soyqırımı günü // Azərbaycan Demokratik Respublikası dövründə ədəbiyyat. - Bakı : Elm, 2003. - S. 209-222.

**Hüseynov S.** Erməni xəyanəti: terror, soyqırım və deportasiya siyasəti. - Bakı : Avropa Nəşriyyatı Servis, 2009. - 175 s.

**İsmayıl X. N.** "Erməni məsələsi" və türk-müsəlman soyqırımı : Ensiklopedik-tarixi araşdırma. - Bakı : Nərgiz, 2013. - 508 s.

**Kəngərli Q.** Erməni lobbisi...Azərbaycan faciəsi. - Bakı : Azərb. Ensiklopediyası "NPB", 1992. - 280 s. - kiril əlifbası ilə.

**Kərimov K. M.** Terrorizm və qanlı ləpirlər. - Bakı : Ozan, 2004. - 368 s.

**Köçərli T.** Erməni saxtakarlığı. - Bakı : Şərq-Qərb, 2002. - 80 s.

**Məmmədov E.** Erməni təxribatı (Sumqayıt, fevral 1988-ci il) : Faktlar və mülahizələr = Армянская диверсия (Сумгаит, февраль 1988 года) : Факты и рассуждения = Armenian saboage (Sumqayit, february 1988) : Facts and discourses. - Bakı : Mütərcim, 2005. - 64 s. : foto. - Azərbaycan, ingilis və rus dillərində.

**Qaraoğlu F.** Ermənilər və həqiqətlər: Rəsmi sənədlərlə. I cild. – Bakı : Nurlar, 2007. - 493 s.

**Qaraoğlu F.** Ermənilər və həqiqətlər: Rəsmi sənədlərlə. II cild. – Bakı : Nurlar, 2008. - 439 s.

**Qaraoğlu F.** Ermənilər və həqiqətlər: Rəsmi sənədlərlə. III cild. - Bakı : Nurlar, 2009. - 344 s. : foto.

**Qəhrəmanov N.** I Dünya müharibəsində Qafqaz cəbhəsində erməni amili. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008. - 296 s.

**Qəniyev S.** 1918-ci il Şamaxı soyqırımı. I kitab. - Bakı : Nurlan, 2003. - 230 s.

**Ordubadi M. S.** Qanlı illər. - Bakı : Qarabağ xalq yardımı Komitəsi, 1991. - 144 s. - kiril əlifbası ilə.

**Səlimbəyli Ş**. Erməni terroru : I kitab: Qarabağda müharibənin başlanması hadisələr... faktlar... – Bakı : Avropa, 2008. - 400 s. : foto.

**Sonam B.** Erməni xərçənginin rişələri : Azərbaycanın soyqırımına - Qarabağa həsr olunmuş sənədli-bədii materiallar. - Bakı : [s. n.], 2004. - 80 s.

Tarixdə ermənilər və türk - erməni münasibətləri. - Bakı : Azərb. ensiklopediyası "NPB", 1998. - 160 s. - kiril əlifbası ilə.

**Zülfüqarlı M.** Şamaxı soyqırımı - 1918. - Bakı : AVCİYA, 2011. - 120 s.

***<u>Kitablarda</u>***

1918-ci ilin soyqırımı // Novxanı sərvətimiz şəxsiyyətlərimizdir. - Bakı : 2010. – S.335-342.

İlkin Q. Bakı 1917-1920-ci illərdə // Bakı və bakılılar. - Bakı : Nurlar NPM, 2006. – S.363-378.

Həbiboğlu V. Kəndlilərin ermənilərə qarşı mübarizəsi // Keşlə və keşləlilər. Bakı : Örnək, 1995. - S.45-61.-kiril qrafikası ilə

Banin. Elə qalmaqallı bir dövrə çatmışdıq ki... // Qafqaz günləri. - Bakı : Qafqaz, 2006. - S. 93-107.

***Bədii əsərlər***

**Abdulla M.** Türk qəbri : hekayə // Soyqırım: Erməni terrorizmi. - 2009. - S. 100-104.

Elatlı E. Cəhənnəmdən gələn səs. - Bakı : MBM, 2009. - 368 s.

**İsmayıl X. N.** Azəri soyqırımı : Mənzum pyes. - Bakı : Nurlan, 2007. - 264 s.

**Ordubadi M. S.** Gizli Bakı : Roman - Bakı : Azərnəşr, 1972. - 295 s. - kiril əlifbası ilə. .

**Ordubadi M. S.** Həyatım və mühitim. - Bakı : "XAN" nəşriyyatı, 2014. - 208 s. - ("XAN" Xatirə Ədəbiyyatı ; VII kitab).

Rüstəmxanlı S. Difai fədailəri : bəlgəsəl roman. - Bakı : Qanun, 2010. - 448 s.

**Sadıqzadə Q.** Son mənzili Xəzər oldu. **I hissə** : Sənədli - Bakı : Gənclik, 1991. - 248 s.

**Soyqırım : Erməni** terrorizmi : Mahmud Kaşkari adına Beynəlxalq Fondun "Soyqırım və köçkünlər probleminin ədəbi düşüncədə dəstəklənməsi" layihəsi / red. Ə. Cəfərov ; lay. rəhb. E. Qaraxanlı ; naşir R. X. Sayadoğlu. - Bakı : MBM, 2009. - 184 s.

**Şeydayev Ç. M.** Bakının tacirləri, lotuları, düşmənləri. - Bakı : Ulu, 2005. - 784 s.

**Şeydayev Ç. M.** Ermənikənd caniləri : tarixi ədəbiyyat. - Bakı : Şirvannəşr, 2008. - 608 s.

# 31 Mart – tariximizin göz yaşı
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 19
Çapa imzalanmışdır:19.02.2018
Tirajı:100
Pulsuz